**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Tacikistan Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.
- 2024-cü il 2-4 iyul tarixlərində Bakı şəhərində “Dabaq Xəstəliyi üzrə Qərbi Avrasiya Yol Xəritəsi üçün Regional Məsləhətləşmə Qrupunun İclası” və Quba rayonunda xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə dabaq xəstəliyi üzrə simulyasiya məşqləri keçirilmişdir. Sözügedən iclasda Tacikistandan nümayəndə heyəti də iştirak etmişdir.
- 2023-cü il 19 dekabr tarixində Tacikistan Respublikası Hökuməti yanında Ərzaq Təhlükəsizliyi Komitəsinin sədr müavini Rano Karimzodanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) ölkəmizdəki nümayəndəliyinin təmsilçiləri AQTA və AQTİ-də olub. Tacikistan tərəfinin məqsədi Azərbaycanın qida təhlükəsizliyi sahəsindəki qabaqcıl təcrübəsini öyrənmək, qazanılan təcrübəni Tacikistanda tətbiq etmək və qida təhlükəsizliyi sistemlərinə keçidin təkmilləşdirilməsi haqqında məlumat əldə etməkdən ibarət olmuşdur.
- 2022-ci il 6 may tarixində Bakı şəhərində AQTA sədri Qoşqar Təhməzli ilə Tacikistan Respublikasının kənd təsərrüfatı naziri Sadi Kərimzoda arasında ikitərəfli görüş keçirilib. Tədbir zamanı Azərbaycan və Tacikistan arasında qida və kənd təsərrüfatı məhsullarının qarşılıqlı dövriyyəsi ilə bağlı bir sıra məsələlər müzakirə edilib.
- 2018-ci il 10 avqust tarixində “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Qırğız Respublikasının Su“Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında” Saziş imzalanmışdır.